kaspi.-2018.-21 aprel.-S.24.

# "AzərKitab" mənzərəsi

*reportaj*




### "YÜNGÜLVARİ" MÜQƏDDİMƏ

Bu həyatda yol keçməkdən qorxduğum qədər heç nədən qorxmamışam hələ. "Reportaj dili yüyrək olar" deyib dərələrdən yel kimi, təpələrdən sel kimi, bədeyi-sərsər kimi olmasa da, canıma vəlvələ salan yollardan keçib, nəhayət, "AzərKitab"ın o əzəmətli binasına çatıram. "AzərKitab" da elədir ki, "bütün yollar oraya aparır". Şoseni keçəndə necə qorxmuşdumsa, çatmazdan əvvəl iş yoldaşıma zəng edib vəsiyyətimi də etmişdim: "Səbahəddin Əlinin əsərlərindən başqa qalan bütün kitablarımı sizə bağışlayıram..."

### "MƏQSƏDİMİZ KİTABA DÖNMƏKDİR"

Bu deviz altında fəaliyyət göstərən "AzərKitab" - Kitab Təbliğat Mərkəzi" fəaliyyətə başladığı ilk gündən cəmiyyətin diqqət mərkəzində olmağı bacarıb. Mərkəzin oxucu üçün rahat və hər bir şəraiti olan möhtəşəm "Oxu Zalı", "Nağıllar dünyası", "Rəsm qalereyası", "Görüşlər və kitab təqdimatlarının zalı", "Book cafe"si fəaliyyət göstərir. Mərkəzdə davamlı olaraq keçirilən görüşlər gənclərin intellektual səviyyəsinin yüksəldilməsində, mütaliə marağının artırılmasında müstəsna rol oynamağa başlayıb. Mərkəzin fəaliyyət proqramında xeyriyyə aksiyalarının təşkili də xüsusi yer tutur. Bunlar göstərir ki, "AzərKitab" bu gün kitab yayımı sahəsində bir sıra ciddi problemlərin tənzimlənməsini öz üzərinə götürə və kitaba qayıdış yolunda qarşılaşdığımız maneələrin həllində nümunə ola bilər.

Mərkəzin direktoru Misirxan Həsənov oxucuları qarşıda daha böyük layihə və planların gözlədiyini bildirdi: "Elmi və elmi-kütləvi kitabların nəşrinə başlamışıq və bu işləri daha da genişləndirmək fikrindəyik. Müxtəlif mövzulu müsabiqələr, qrant layihələri təşkil etmək nəzərdə tutulur. Azərbaycanlı müəlliflərin ölkəmizdə olduğu kimi, xaricdə də kitablarının nəşrini dəstəkləmək məqsədi ilə xüsusi fond yaratmaq fikrindəyik". "AzərKitab"da söhbətləşdiyim şəxslərdən biri də əməkdar jurnalist Elman Gədikli oldu. "Kitabları yandırmaqdan daha pis şey onları oxumamaqdır" fikrini tez-tez misal çəkən Elman bəy kitab təbliğatının necə şərəfli bir iş olmasından, "AzərKitab"ın uzaq və yaxın keçmişindən ağızdolusu danışdı.

"Mağazamızda rusdilli ədəbiyyata tələbat daha çoxdur" deyən mərkəzin satış üzrə icraçı direktoru, 25 ildən çoxdur ki, bu sahədə çalışan Cəmilə Kəngərli kitab işinin ona ticarət kimi deyil, sevgi ilə baxan şəxslər tərəfindən həyata keçirilməsinin tərəfdarı olduğunu bildirdi.

### TOZLU ƏLLƏRİN SÖYLƏDİKLƏRİNDƏN

Qısametrajlı bir filmdə izləmişdim, rejissor teatra yeni ayaq basan həvəskar aktyor və aktrisadan gözlərini yumub səhnədəki tozlu havanı ciyərlərinə çəkmələrini istəmişdi. Yəqin, o düşünürdü ki, səhnədəki ab-havanı bütün bədəninlə duymasan, yaxşı rol ifa edə bilməzsən. Düzü, bu kiçik hadisəni illər keçsə də, ağlımdan çıxara bilmirdim. Hətta düşünürdüm ki, bir gün mütləq hansısa hekayəmdə bu detaldan istifadə edəcəyəm. Ta ki "AzərKitab"dakı 30 ildir kitab işiylə məşğul olan, 8 kitab müəllifi Ramiz Cəfərovu tanıyana qədər. Ramiz müəllimi görəndən sonra anladım ki, belə bir obraz yaratmağıma gərək yoxdur, çünki Tanrı özü artıq bu surəti xəlq edib.

Elman Gədikliylə birgə mağazanı gəzərkən Ramiz müəllimlə, daha doğrusu, kitabların tozu hopmuş əlləri ilə qarşılaşdıq. Ondan mağaza barədə bir neçə cümlə danışmağını istəsək də, əllərini göstərib nəsə dedi. Amma mən o "nəsə"ni artıq eşitmirdim, bütün fikrim əllərində idi. Əlbət, bu detalı gözardı edə bilməzdim, o dəqiqə əlimdəki vərəqlərin bir kənarına qeyd etdim. Bunu hiss edən Ramiz müəllim də "Jurnalistlər belədir də" deyib gülümsədi. Ramiz Cəfərovun dilindən uzun-uzadı, ətraflı fikirlər eşitmədik, amma əlləri qulaq asmağı bilənlər üçün hekayələr danışdı...

### KİTABLARA "YUVA" QAZANDIRANLAR

Yaxşı bilirəm ki, "AzərKitab"ın divarlarını daha rəngli, pillələrini daha canlı edən kitablardır. Fəqət o kitablara nəvazişini, qayğısını əskik etməyən, onlara yeni "yuva" qazandıran şəxslərdən danışmasaq, olmaz. Bəli, söhbət "AzərKitab"ın heyətindən gedir. Mağazanın böyük bir komanda ilə işlədiyini yaxşı bilirəm, lakin mənim bu böyüklükdən sadəcə üçünü qiyabi tanımaq imkanım oldu: İlahə xanım, Vüqar bəy və Rəhilə xanım.

Mağazanı gəzəndə əllərində kitablar gah bir, gah da ikinci mərtəbədə görünən utancaq Rəhilə xanım daima yaddaşımda rəfləri "sevindirən" obraz kimi qalacaq.

Bu üçlükdən daha çox ünsiyyətdə olduğum istehsalat təcrübəsi üçün "AzərKitab"a gələn, lakin qısa müddətdə bu komandaya daxil olan İlahə xanım oldu. Tapdığı boş vaxtlarda bir kənara çəkilib əlindəki kitabı oxuyan İlahəylə söhbətimizdən aydın oldu ki, təcrübə üçün başqa müəssisəyə göndərilsə də, əlindən gələni edərək yolunu "AzərKitab"a salıb. Həmçinin öyrəndim ki, mağazanın rəngli, əyləncəli uşaqlar üçün olan hissəsi və onlarla keçirdiyi vaxt İlahə üçün daha doğmadır.

Mağazanın digər əməkdaşlarından biri Vüqar bəy isə bizə alıcıların qəribə istəklərindən, düzgün səsləndirilməyən kitab və müəllif adlarından, tapılmayan kitabların yaddaşlarında iz salmağından və daim axtarılan olmasından bəhs etdi.

Bütün yazdıqlarım bir neçə saat ərzində sadəcə mən müşahidə etdiyim qədəridir. Bu qısa zaman kəsimində belə doğmalıqlarını hiss etdiyim gənclərə tutduqları gözəl işdə uğurlar arzulayıram!

### SİRLİ TARİX

"AzərKitab"da olduğum müddətcə nədənsə sirli bir məqam, bir detal görmək, hiss etmək istəyirdim. Deyəsən, bu da həmin günü oxuduğum magik realizm üslubundakı kitabla bağlı idi. Hətta bir ara düşünürdüm ki, "Muzeydə bir gecə" filmindəki kimi gözdən yayınıb bir küşədə havanın qaralmasını, hər kəsin gedib, mağazanın bağlanmasını gözləyim. Bəlkə, onda istədiyimi tapa bilərdim. Nə bilmək olar, bəlkə də, həmin gecə kitablarla yaxşı söhbət edərdik. Amma mağazadakı bir kitab buna imkan vermədi, yəqin istəmirdi ki, "asudə vaxtlarına" daxil olum. Kim bilir, bəlkə, onlar da gözlərdən "uzaq" olanda bir-birilərini oxuyurlar. Rəflərin qarşısını maraqla gəzəndə bir kitab diqqətimi cəlb etdi: İlk səhifəsi imzalı "Yeni türk ədəbiyyatı". İmza və sonundakı tarix isə elə sirli idi ki, kitabların müdrikliyinə bir daha şahid oldum. O müdriklər bilirdilər ki, nə zamansa filan tarixdə bir qız biz olan "ev"dən yazı hazırlayacaq. Kitabın içindəki sirri isə faş etməyəcəm, qoy, mübhəm qalsın. Sirrə vaqif olmaq istəyənlərsə "AzərKitab"a baş çəkib minlərlə kitab arasından O-nu tapıb, ilk səhifəsinə diqqətlə nəzər yetirsinlər. Və mütləq həmin kitaba məndən salam söyləsinlər...

**Hazırladı:**
**Aytac Quliyeva**




